1_Layout 1 13.01.2024 15:01 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 1 (665)

16 yanvar 2024-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# MÜASİR AZƏRBAYCANIN YENİ İNKİŞAF DÖVRÜ

## Xankəndi zəfəri ilə xalqımızın, dövlətimizin qarşısında parlaq üfüqlər açılıb

**“Azərbaycan” qəzetinin müxbiri Yasəmən Musayevanın müəllifi olduğu “Müasir Azərbaycanın yeni inkişaf dövrü” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq oxucularımıza təqdim edirik.**



“Hesab edirəm ki, müasir tariximizin yeni dövrü məhz sentyabrın 20-dən sonra başlayır”.

Prezident İlham Əliyevin bu il yerli televiziya kanallarına verdiyi ilk müsahibəsində cəmi bir cümlə ilə mükəmməl şəkildə ifadə etdiyi kimi, Xankəndi zəfəri müasir Azərbaycanın qarşısında yeni və parlaq üfüqlər açıb.

2023-cü il sentyabrın 20-də qazanılan qələbə Azərbaycan xalqının, dövlətinin milli hədəflərinə doğru onilliklərin o üzündən çıxdığı, böyük əzm, qətiyyət, qəhrəmanlıq tələb edən və ağır sınaqlarla dolu haqq yolunun zəfər zirvəsi oldu. Heç şübhəsizdir ki, bu zəfərin Azərbaycanın daha parlaq eralara daşınmasında misilsiz rolu olacaq.

### Milli vəzifə yerinə yetirildi

Prezident İlham Əliyevin şəxsi liderlik qabiliyyəti, siyasi əzmi, qətiyyəti, iradəsi nəticəsində Azərbaycan işğala məruz qalan ölkədən zəfər ölkəsinə çevrilib. Ərazi bütövlüyümüz, suverenliyimiz tam təmin edilib, bayrağımız Xankəndidə, Xocalıda, Xocavənddə, Əsgəranda - bütün ərazilərimizdə dalğalandırılıb. Qarabağda separatizmin kökü birdəfəlik kəsilib.

Xocalıda, Ballıqayada, Ağdabanda, Başlıbeldə və digər neçə-neçə şəhər və kəndlərimizdə dinc sakinlərimizə qarşı soyqırım törədən erməni canilər bir-bir həbs edilərək törətdikləri qaniçən əməllərin hesabını vermək üçün Bakıya gətirilərək ədalət məhkəməsinə çıxarılıblar.

Bir sözlə, Azərbaycan illər öncə qarşısına qoyduğu milli vəzifəsinə Xankəndi zəfəri ilə son nöqtəsini qoyub. “Qarabağ Azərbaycandır!” həqiqətindən güc alaraq və buna qarşı çıxan istənilən qüvvəyə qarşı layiqincə mübarizə apararaq, döyüşərək, çarpışaraq tarixi ədaləti bərpa edib.

Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziyalara verdiyi müsahibəsində də məhz bu məqama toxunaraq, “Biz əsas vəzifəni, siz də qeyd etdiyiniz kimi, bir neçə ay bundan əvvəl həll etmişik, ölkəmizin suverenliyini tam bərpa etmişik və sentyabr hadisələri, əlbəttə ki, ümumi kontekstdən çıxarıla bilməz” söylədi.

Dövlət başçısı onu da qeyd etdi ki, sentyabra qədər getdiyimiz yol məqsədyönlü yol idi, məqsədə hesablanmış yol idi, düzgün yol idi. İstər siyasi müstəvidə, istər hərbi müstəvidə, istər ölkəmizdə gedən proseslər nöqteyi-nəzərindən bu hadisə bütün işlərimizin elə bil ki, son nidası idi: “Bu gün biz 2024-cü ilə suverenliyini tam bərpa etmiş ölkə kimi, xalq kimi başlayırıq”.

### Hədəfə doğru inamla

Ancaq bu gün qürurunu, fəxrini yaşadığımız bu qələbələrə yetənə qədər xalqımız, dövlətimiz olduqca çətin, sınaqlarla dolu bir yol qət etməli oldu.

1993-cü, xüsusilə də 2003-cü ildən sonra ötən dövrə nəzər salanda görürük ki, torpaqlarının işğal altında olduğu, məcburi köçkünlük problemi yaşandığı və üstəlik də siyasi, diplomatik müstəvidə bəzi beynəlxalq qurum və ölkələrin qərəzi ilə üz-üzə qalaraq daim onlarla haqq işimiz uğrunda mübarizə apardığı dövrün özündə belə Azərbaycan bütün sahələrdə hərtərəfli inkişaf səviyyəsinə yüksəlib. Lakin o da danılmaz həqiqətdir ki, sözügedən problemlərin varlığı ölkəmizin daha sürətli inkişafına başlıca əngəl yaradırdı və dövlətimizin qarşısında duran bir nömrəli vəzifə də məhz bu maneələrin aradan qaldırılmasından ibarət idi. Məhz ötən 30 ildə bu milli hədəf istiqamətində böyük qətiyyət, əzm və iradə ilə dövlətimizin həm daxildə, həm də beynəlxalq arenada apardığı məqsədyönlü fəaliyyət sayəsində bu gün artıq yuxarıda sadalanan problemlərin heç biri yoxdur və tamamilə həll edilib.

“Son 20 ilin tarixi göz qabağındadır və əsas məsələ ondadır ki, 2003-cü ildə Azərbaycan xalqı düzgün seçim etmişdi” deyən Prezident İlham Əliyev də müsahibəsində hesab etdiyini söylədi ki, müstəqil tariximizin ən həlledici məqamı məhz 2003-cü il idi: “Çünki o vaxt ölkəmizin gələcəyi ilə bağlı konseptual yanaşma tam özünü təsdiqləmişdi, yəni Heydər Əliyev siyasəti davam etdirildi”.

### Dünyanın nüfuzlu ölkəsi

2020-ci il sentyabrın 27-də başlayan haqq işimizin öncə 8 noyabr - Şuşa zəfəri və onun uğurlu davamı kimi 2023-cü ildə Xankəndi zəfəri ilə məntiqi sonluğuna yetirilməsi Azərbaycanın bütün parametrlərdə sürətli inkişafına birbaşa təkan verib, qarşıda yeni vəzifələrə, yeni hədəflərə yol açıb.

Hər zaman beynəlxalq arenada etibarlı və güvənilən tərəfdaş kimi tanınan, qlobal miqyaslı problemlərin həllinə mühüm töhfələr verən Azərbaycanın adı dünyanın nüfuzlu, eləcə də güclü ölkələri sırasında çəkilir. Təsadüfi deyil ki, bu gün istənilən beynəlxalq məsələ ilə bağlı Cənubi Qafqazın şəksiz lideri Azərbaycanın fikri öyrənilir, mövqeyi mütləq nəzərə alınır.

Təbii ki, Azərbaycanın əldə etdiyi bu qalibiyyətlər qardaş və dost ölkələri sevindirsə də, bunu həzm edə bilməyən bəzi xarici düşmənlərdən də xali deyilik. Xüsusilə də özlərini dünyanın “supergüc”ləri, “yenilməzlər”i sırasında hesab edən Qərb ölkələrinin timsalında ki, bunların başında Fransa gəlir. Həmin ölkələr 30 illik işğal dövründə, eləcə də Vətən müharibəsi və ondan sonrakı zamanda Xankəndi zəfərinə qədər əllərindən gələn riyakarlığı, bədnamlığı etdilər ki, Azərbaycanı haqq yolundan döndərsinlər, amma bacarmadılar. Azərbaycan torpaqlarını işğaldan azad etdi, ərazi bütövlüyünü və suverenliyini tam təmin etdi. Özü də heç bir xarici siyasi təzyiqə boyun əymədən, öz gücü hesabına.

Azərbaycanın siyasi iradəsinə heç cür təsir göstərə bilməyən, qarşılarında daha 1990-cı illərin əvvəllərindəki yox, qüdrətli, güclü, onlara, sözün əsl mənasında, istənilən platformada meydan oxuyan qalib, zəfər çalmış, yüksələn Azərbaycan olduğunu görən “demokratik” ölkələr isə indi qorxaqların getdiyi yollara əl atırlar. Bunu Azərbaycanın görkəmli şairi Xurşidbanu Natəvanın Fransadakı abidəsinin təhqir olunmasının fonunda da aydın görmək olur.

“Bu, deyə bilərəm ki, artıq kin, gücsüzlük və isterikanın özünü heykəldə göstərdiyi mənəvi deqradasiyanın dibidir”, - deyə müsahibəsində Prezident İlham Əliyevin vurğuladığı kimi.

### Xalqımızın, dövlətimizin ən parlaq qələbəsi

Müzəffər Lider, mahir siyasətçi, ən ümdəsi vətənpərvər şəxs olan İlham Əliyevin böyük əzm və qətiyyətinin nəticəsində son 20 il ərzində Azərbaycan siyasi, iqtisadi, hərbi, diplomatik, ümumiyyətlə bütün sahələr üzrə möhtəşəm qələbələr, dövlətçilik tariximizdə bənzərinə rastlanmayan zəfərlər qazanıb.

Azərbaycan xalqı Şuşa, Xankəndi zəfərlərini yaşayıb, torpaq nisgilindən qurtulub, şəhidlərimizin qisasının alınmasından mənəvi rahatlıq tapıb.

Ərazi bütövlüyümüzün, dövlət suverenliyimizin təmin olunması, Xankəndidə bayrağımızın dalğalandırılması ilə tariximizin 30 illik bir dövrünə şanlı yekun vurulub, özündən sonra gələcək minilliklərə doğru parlaq yollar açıb.

Necə ki, bunu Müzəffər Lider İlham Əliyev müsahibəsində bir daha dünyaya bəyan etdi: “Sentyabr ayında biz elə bir dövrə yekun vurmuşuq ki, bu, epoxal bir hadisədir. Yəni Azərbaycanın çoxəsrlik tarixində mən hesab edirəm ki, buna oxşar zəfər olmamışdır. Bütün amilləri - siyasi, hərbi və 30 illik işğalı, ərazinin relyefini, müdafiə xətlərinin çox olmasını nəzərə alsaq, hesab edirəm ki, bu, xalqımızın, dövlətimizin ən parlaq qələbəsidir”.

# Daxili işlər naziri əməliyyat müşavirəsi keçirib







Yanvarın 12-də Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının 2023-cü ildəki xidməti-döyüş fəaliyyətinin yekunlarına həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.

Müşavirəni giriş sözü ilə açan general-polkovnik Vilayət Eyvazov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf və tərəqqi strategiyası nəticəsində ölkəmizin iqtisadi qüdrətinin, müdafiə potensialının, beynəlxalq mövqelərinin əhəmiyyətli dərəcədə möhkəmləndiyini bildirib, dövlət başçısının ordu quruculuğuna, o cümlədən Daxili Qoşunların fəaliyyətinin təkmilləşdirilməsinə, maddi-texniki təminatının, hərbi qulluqçuların iş və məişət şəraitinin daha da yaxşılaşdırılmasına daim xüsusi diqqət göstərdiyini vurğulayıb.

DİN-in Daxili Qoşunlarının ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində, eləcə də ötən ilin sentyabr ayının 19-20-də lokal xarakterli antiterror tədbirləri zamanı göstərdiyi şücaəti, respublikamızın hər yerində, o cümlədən işğaldan azad edilmiş şəhər və rayonlarda hərbi qulluqçuların polis əməkdaşları ilə birlikdə ictimai asayişin, təhlükəsizliyin qorunmasında göstərdikləri xidmətlərini cənab Prezidentin yüksək qiymətləndirdiyini məmnunluqla qeyd edən nazir onu da vurğulayıb ki, bu ali diqqət və qayğı hərbi qulluqçulardan və polis əməkdaşlarından xidməti vəzifələrini daha böyük məsuliyyətlə yerinə yetirmələrini tələb edir.

Sonra Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov xidməti-döyüş fəaliyyətinin yekunları barədə məruzə ilə çıxış edib.

Müşavirəyə yekun vuran nazir V.Eyvazov qoşunların qarşısında duran vəzifələri qeyd edib, tapşırıq və tövsiyələrini verib. Eyni zamanda əmin olduğunu bildirib ki, şəxsi heyət onlara göstərilən diqqət və qayğıya sabitliyin, əmin-amanlığın etibarlı qorunması, cinayətkarlıqla qətiyyətli mübarizə, eləcə də işğaldan azad edilmiş ərazilərdə nümunəvi xidmətilə cavab verəcək, qarşıya qoyulan bütün vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəkdir.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 15.01.2024 11:18 Page 1



# ALİ DİQQƏT, FƏDAKAR XİDMƏT!

## Daxili İşlər Nazirliyinin şəxsi heyəti bundan sonra da Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazırdır



Dekabrın 29-da Daxili İşlər Nazirliyində Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında şəhidlik zirvəsinə ucalmış əməkdaşların ailə üzvlərinə, həmçinin xidməti vəzifələrini yerinə yetirərkən qəhrəmanlıq nümunələri, şücaət və mərdlik göstərmiş, cinayətkarlığa qarşı mübarizədə, ictimai asayişin qorunmasında fərqləndiklərinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə təltif edilmiş bir qrup əməkdaşa dövlət mükafatlarının təqdim olunmasına həsr olunmuş tədbir keçirilib.

Əvvəlcə respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda canından keçmiş igid oğullarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin vahid komandanlığı altında dəmir yumruq kimi birləşən Silahlı Qüvvələrimizin, o cümlədən Daxili İşlər Nazirliyinin hərbi qulluqçularının Vətən müharibəsində şərəfli döyüş yolu keçdiklərini vurğulayıb. Hərbi qulluqçularımızın Murovdağdan Şuşaya qədər gedən döyüşlərdə iştirak etdiklərini qeyd edən nazir torpaqların azad olunması zamanı şəxsi heyətdən 66 nəfərin şəhidlik zirvəsinə ucaldığını, 346 nəfərin yaralandığını qeyd edərək, 4 hərbi qulluqçunun "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldüyünü, minlərlə hərbi qulluqçumuzun isə orden və medallarla təltif olunduğunu diqqətə çatdırıb.

General-polkovnik V.Eyvazov Vətən müharibəsində olduğu kimi 2023-cü ilin sentyabr ayında lokal xarakterli antiterror tədbirləri zamanı Daxili İşlər Nazirliyinin 20 əməkdaşının şəhid olduğunu, qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsi zamanı hərbi qulluqçuların, eləcə də polis əməkdaşlarının yüksək peşəkarlıq göstərdiklərini, şəxsi heyətin bundan sonra da Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazır olduqlarını bildirib.

Sonra nazir V.Eyvazov antiterror tədbirləri zamanı şəhidlik zirvəsinə ucalmış polis əməkdaşlarının və hərbi qulluqçuların ailə üzvlərinə, döyüş tapşırıqlarının icrası zamanı fədakarlıq göstərən, eləcə də xidməti vəzifələrin öhdəsindən layiqincə gələn əməkdaşlara ali mükafatları təqdim edib.

Nazir hər bir təltifin, eyni zamanda məsuliyyət doğurduğunu xatırladıb, öz andına həmişə sadiq olan daxili işlər orqanları əməkdaşlarının bundan sonra da Vətənə və xalqa şərəflə xidmət edəcəklərinə, bu yolda qüvvə və bacarıqlarını əsirgəməyəcəklərinə əminliyini bildirib.

**DİN-in Mətbuat xidməti**

# 20 YANVAR - ÜMUMXALQ HÜZN GÜNÜ



1990-cı il yanvar faciəsinə aparan yol azərbaycanlıların Ermənistandakı tarixi torpaqlarından növbəti kütləvi deportasiyasının, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi cəhdlərinin geniş vüsət aldığı 1987-ci ildən başlayıb. Artan xətt üzrə davam edən gərginliyin qarşısını almaq əvəzinə, Sovet rəhbərliyi Azərbaycan xalqına qarşı dəhşətli cinayət işlədib.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə birbaşa Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin baş katibi Mixail Qorbaçovun əmri ilə SSRİ Müdafiə Nazirliyi, Dövlət Təhlükəsizliyi Komitəsi və Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya və Azərbaycanın bir neçə rayonuna yeridilib, dinc əhali ağır texnikadan və müxtəlif tipli silahlardan atəşə tutularaq kütləvi qətlə yetirilib. Sovet ordusunun xüsusi təyinatlı dəstələrinin və Daxili Qoşunların iri kontingentinin Bakını zəbt etməsi xüsusi qəddarlıq və misli görünməmiş vəhşiliklə müşayiət edilib. Fövqəladə vəziyyətin tətbiqi əhaliyə elan olunanadək hərbi qulluqçular 82 nəfəri amansızcasına qətlə yetirib, 20 nəfəri ölümcül yaralayıblar. Fövqəladə vəziyyət elan edildikdən sonra isə bir neçə gün ərzində Bakı şəhərində 21 nəfər öldürülüb. Fövqəladə vəziyyətin elan olunmadığı rayon və şəhərlərdə - yanvarın 25-də Neftçalada və yanvarın 26-da Lənkəranda daha 8 nəfər qətlə yetirilib.

Beləliklə, qoşunların qanunsuz yeridilməsi nəticəsində Bakıda və ətraf rayonlarda 131 nəfər öldürülüb, 744 nəfər yaralanıb. Həlak olanların arasında qadınlar, uşaqlar və qocalar, həmçinin təcili yardım işçiləri və milis nəfərləri olub.

Qoşunların qanunsuz yeridilməsi həm də dinc əhali arasında kütləvi həbslərlə müşayiət olunub. Əməliyyatların gedişi boyunca paytaxt Bakı və respublikanın digər şəhər və rayonlarında 841 nəfər qanunsuz həbs edilib, onlardan 112-si SSRİ-nin müxtəlif şəhərlərindəki həbsxanalara göndərilib. Hərbi qulluqçular tərəfindən 200 evə, 80 avtomobilə, o cümlədən təcili yardım maşınlarına atəş açılıb, yandırıcı güllələrin törətdiyi yanğınlar nəticəsində külli miqdarda dövlət və şəxsi əmlak məhv edilib.

Sovet qoşunlarının hərəkətlərində 1945-1946-cı illərdə keçirilmiş və tarixə Nürnberq prosesi kimi düşmüş beynəlxalq tribunalda pislənilən bütün əlamətlər müşahidə edilib.

1990-cı il yanvar qurbanları simvolik olaraq "20 Yanvar şəhidi" adlanırlar. Ümumilikdə Azərbaycanın 150 nəfər "20 Yanvar şəhidi" vardır.

Faciədən dərhal sonra – 1990-cı il yanvarın 21-də Ümummilli Lider Heydər Əliyev ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək doğma xalqı ilə həmrəy olduğunu nümayiş etdirib, SSRİ rəhbərliyinin törətdiyi bu qanlı əməliyyata kəskin etirazını bildirib və həmin əməliyyata rəhbərlik edənləri ifşa edib.

Yanvar faciəsi ümumxalq hüznü olmaqla yanaşı, həm də Azərbaycan xalqının iradəsinin sarsılmazlığını, mətinliyini göstərdi.

1994-cü il martın 29-da Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 20 Yanvar faciəsinə ali qanunvericilik orqanı – Milli Məclis səviyyəsində ilk dəfə hüquqi-siyasi qiymət verilib.

Azərbaycan xalqı 20 Yanvar şəhidlərinin xatirəsini əziz tutur.

Hər il yanvarın 20-də Bakı vaxtı ilə saat 12:00-da Azərbaycanın bütün ərazisində 20 Yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunur, gəmilərdən, avtomobillərdən və qatarlardan səs siqnalları verilir, hüzn əlaməti olaraq dövlət bayraqları endirilir.

**President.az saytının materialları əsasında hazırlanıb.**

# DAXİLİ QOŞUNLARIN HƏRBİ ŞURASININ NÖVBƏTİ İCLASI KEÇİRİLİB

Yanvarın 11-də Daxili Qoşunların Baş İdarəsində "2023-cü ildə xidməti-döyüş fəaliyyətinin yekunları və qarşıda duran vəzifələr haqqında" Hərbi Şuranın iclası keçirilib.




İclasda giriş sözü ilə çıxış edən Hərbi Şuranın sədri, Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov diqqətə çatdırıb ki, Daxili İşlər Nazirliyinin Daxili Qoşunları tərəfindən ötən il ərzində polis orqanları ilə birgə işğaldan azad edilmiş ərazilərdə, mühüm əhəmiyyətli dövlət, idman və digər kütləvi tədbirlərdə ictimai qaydanın qorunmasında və ictimai təhlükəsizliyin təmin edilməsində, habelə antiterror tədbirləri zamanı müəyyən edilmiş tapşırıqlar layiqincə və keyfiyyətlə icra olunub.

Daxili qoşunların komandanı iclasın gündəliyini elan etdikdən sonra Daxili qoşunlar komandanının 1-ci müavini-qərargah rəisi general-mayor Tofiq Hüseynov məruzə ilə çıxış edib.



Qeyd olunub ki, ötən il ərzində Daxili Qoşunlar tərəfindən işğaldan azad edilmiş ərazilərdə yaradılan stasionar postlarda və ayrı-ayrı marşrutlar üzrə xidmət təşkil edilib, mühüm obyektlərin mühafizəsi təmin olunub, xidməti ərazilərin monitorinqi keçirilərək əməliyyat məlumatları fasiləsiz toplanılıb və təhlili aparılıb, aidiyyəti orqanlarla zəruri qarşılıqlı əlaqələr yaradılıb. Bundan əlavə, antiterror tədbirləri zamanı Daxili Qoşunlara həvalə olunmuş vəzifələrin icrasının mərhələlərlə təmin edilməsi üzrə fəaliyyət koordinasiyasının həyata keçirilməsi, polis əməkdaşları ilə birgə işğaldan azad olunmuş ərazilərdə yaşayış məntəqələrinin təcrid edilməsi, giriş və çıxış yollarında nəzarətin təşkili üzrə blok-postun, habelə hərbi obyektlərin mühafizəsi üçün mühafizə postlarının qurulması təmin edilib.

Ötən il ərzində qoşunlar beynəlxalq səviyyəli mühüm tədbirlərin, o cümlədən 74-cü Beynəlxalq Astronavtika Konqresinin, "Formula-1 Azərbaycan Qran-Pri" yarışının, futbol oyunlarının və digər mühüm beynəlxalq səviyyəli tədbirlərin keçirilməsi zamanı ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasına cəlb edilib. Bu tədbirlər zamanı, həmçinin işğaldan azad olunmuş ərazilərdə hərbi hissələrin istehkamçı yarımqrupları tərəfindən də onlara həvalə edilmiş aidiyyəti xidməti-döyüş tapşırıqları uğurla yerinə yetirilib.

2023-cü il ərzində qoşunlarda döyüş təlimi müvafiq direktivin tələbləri əsasında keçirilib, hərbi qulluqçuların komandir, ixtisas, atəş və fiziki hazırlıq səviyyəsinin təkmilləşdirilməsi təmin olunub. Daxili Qoşunların hərbi hissələri və ərazi polis orqanlarının birgə fəaliyyətinin və koordinasiyasının təkmilləşdirilməsi məqsədilə birgə xüsusi-taktiki təlim məşqləri təşkil olunub keçirilib.

Bununla yanaşı, məruzədə 2023-cü il ərzində Daxili Qoşunların şəxsi heyəti ilə tərbiyə işinin təşkilinin və hərbi intizamın vəziyyətinin qənaətbəxş olduğu vurğulanıb. Bildirilib ki, qanunçuluğun və hərbi intizamın möhkəmləndirilməsi, xəsarətalma hallarının və nizamnamədənkənar münasibətlərin qarşısının alınması, kollektivlərdə sağlam mənəvi-psixoloji mühitin yaradılması diqqətdə saxlanılan məsələlərdən olub.

Həmçinin ötən il ərzində Daxili Qoşunlarda maddi-texniki bazanın möhkəmləndirilməsi ilə bağlı tədbirlərin ardıcıllıqla davam etdirilməsi, şəxsi heyətin kazarma-məişət şəraitinin müasir standartlara uyğunlaşdırılması və hərbi qulluqçuların zəruri tələbatlarının təminat normalarına uyğun təmin olunması da diqqətə çatdırılıb.

İclasda Baş İdarənin bir sıra idarə, şöbə rəisləri və hərbi hissə komandirlərinin mövcud vəziyyət, diqqətçəkən nöqsan və çatışmazlıqların yaranma səbəbləri barədə hesabat-çıxışları dinlənilib. Çıxışlar zamanı qeyd olunub ki, ümumilikdə hərbi hissələr qarşıya qoyulmuş tapşırıqlardan irəli gələn vəzifələri tam həcmdə yerinə yetiriblər.

Çıxışlardan sonra Daxili qoşunların komandanı növbəti ildə qarşıda duran vəzifələrlə əlaqədar aidiyyəti vəzifəli şəxslərə tapşırıqlar verib.

Sonda iclasa yekun vuran general-leytenant Ş.Məmmədov Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyətinin bundan sonra da xalqa və dövlətə sadiqliyini nümayiş etdirərək ləyaqətlə xidmət edəcəyinə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısına cavab olaraq, Daxili işlər nazirinin əmr və göstərişlərindən irəli gələn vəzifələri layiqincə yerinə yetirəcəyinə, polis orqanlarının əməkdaşları ilə birgə ölkədə ictimai asayişin və sabitliyin keşiyində mətinliklə dayanacağına əminliyini ifadə edib, hərbi qulluqçulara fəaliyyətlərində uğurlar arzulayıb.

**Mətbuat xidməti**

# XÜSUSİ TƏYİNATLILARIN GÜCÜ ONLARIN PEŞƏKARLIĞINDADIR







Hərbi hissələrimizdə fəaliyyət göstərən xüsusi təyinatlıların silahlı cinayətkarların axtarılması, tutulması, zərərsizləşdirilməsi istiqamətində həyata keçirdikləri xidməti-döyüş fəaliyyəti təqdirəlayiqdir.

12318 saylı hərbi hissənin komandirinin tərbiyə işləri üzrə müavini polkovnik Ağacan Zərbəliyev xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyəti barədə danışarkən bildirdi ki, dəstə qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirir. Onların hərtərəfli hazırlığı bunu deməyə əsas verir. Polkovnik A.Zərbəliyev xüsusi təyinatlı dəstənin 2023-cü ilin ümumi inspeksiya yoxlamasının yekunlarına görə hissə üzrə liderliyi qoruyub saxladığını nəzərə çatdırdı.

Dəstə komandiri polkovnik-leytenant Anar Rizvanov hava şəraitindən asılı olmayaraq, təlim-məşqlərin davamlı olaraq keçirildiyini bildirdi. Qeyd etdi ki, şəxsi heyətin döyüş təlimi Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Atəş və fiziki hazırlıqla yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlə-desant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərin təşkili mütəmadi olaraq təkmilləşdirilir. Məşğələ mövzularının hərbi qulluqçular tərəfindən dərindən mənimsənilməsi məqsədilə çoxşaxəli tədbirlər görülür. Şəxsi heyətin təlim-tərbiyəsi, mənəvi-psixoloji hazırlığına xüsusi diqqət yetirilir.

Döyüş texnikasından bacarıqla və peşəkarcasına istifadə edə bilmələri üçün müxtəlif ərazi və hava şəraitində məşğələlər keçirilir. Məşğələlər zamanı yarımqrup komandirləri xüsusi fəallıq nümayiş etdirirlər.

Polkovnik-leytenant A.Rizvanov şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi üçün xüsusi təyinatlı dəstə komandirinin müavini-qərargah rəisi kapitan Samir Omarovun xidmətini tələblərə uyğun olaraq təşkil etdiyini, hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının təkmilləşdirilməsində isə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Elşad Qasımovun əməyini vurğuladı.

Müsahibim təlimlər zamanı şəxsi heyət tərəfindən təhlükəsizlik qaydalarına ciddi riayət olunduğunu bildirdi.

Dəstə komandiri bacarıqlı və fəal hərbi qulluqçulardan baş leytenant Kənan Atakişiyev, baş çavuşlar Asim Azayev, İlkin Rəhmanlı, çavuşlar Davud Məmmədov və Nəsihət Əlizadənin adlarını çəkdi.

**kapitan Şahin Cəfərzadə**

3_Layout 1 13.01.2024 15:53 Page 1



# ŞƏHİD AİLƏLƏRİNƏ DİQQƏT VƏ DƏRİN EHTİRAM HƏR BİRİMİZİN MÜQƏDDƏS BORCUDUR

Dekabr ayının 29-da 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşı polis mayoru Ayaz Quliyevin və 12565 saylı hərbi hissənin tərbiyə işləri üzrə bölməsinin rəisi-baş təlimatçı mayor Orxan Seyidovun rəhbərliyi, eləcə də Muxtar Respublikanın DİN-in şəhər, rayon polis idarə və şöbələrinin əməkdaşlarının iştirakı ilə Naxçıvan şəhərində və Culfa rayonunda şəhid hərbi qulluqçularımız kapitan Şamil Babayev, gizir Vaqif Rəcəbov, baş çavuş Sahib Məmmədov və polis serjantı Ələsgər Əsgərovun ailələri ilə görüş keçirilib. Görüş zamanı



polis mayoru Ayaz Quliyev və mayor Orxan Seyidov çıxış edərək, 2020-ci ilin 27 sentyabr – 9 noyabr tarixlərində 44 gün davam edən Vətən müharibəsi və 2023-cü ilin




19-20 sentyabr tarixlərində keçirilən antiterror tədbirləri zamanı hərbi qulluqçularımızın şücaətləri, torpaqlarımızın düşmən tapdağından azad olunması naminə mərd oğullarımızın öz canlarından keçərək əsl vətənpərvərlik nümunələri göstərmələri haqqında danışıblar. Daxili Qoşunların şərəfli döyüş yolundan bəhs edilib.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında Silahlı Qüvvələrimizin keçirdiyi "Dəmir yumruq" əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyünün bərpasının, suverenliyinin tam bərqərar edilməsinin tarixi əhəmiyyətindən, bundan əlavə, dövlət başçısının şəhid ailələrinə, qazilərə göstərdiyi diqqət və qayğıdan söz açılıb.

Qeyd olunub ki, şəhid ailələrinin, qazilərin sosial rifah halının, mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün mühüm işlər görülüb, bu istiqamətdə ardıcıl olaraq çox-



şaxəli tədbirlər həyata keçirilir. Möhtərəm Prezidentimizin bütün dövlət qurumları qarşısında bu həssas təbəqəyə aid olan insanların problemlərinin həllini bir nömrəli vəzifə kimi müəyyənləşdirdiyi, ölkə rəhbərliyinin fəaliyyətində bu məsələnin prioritet istiqamətlərdən biri olduğu xüsusi vurğulanıb. Bundan sonra da şəhid və qazi ailələrinə dövlət qayğısının davamlı olacağı diqqətə çatdırılıb.

Üçrəngli bayrağımızı Qarabağda dalğalandıran qəhrəman şəhidlərimizə Allahdan rəhmət dilənib, qazilərimizə isə cansağlığı arzulanıb.

Görüş zamanı şəhidlərin ailə üzvlərinə bayram sovqatı verilib, onların müraciətləri dinlənilib, qaldırdıqları məsələlərin həllinə köməklik göstərilib.

Şəhid ailələrinin üzvləri lazımi diqqət və qayğı ilə əhatə olunduqlarını söyləyərək, bu görüşün təşkilinə görə dərin minnətdarlıqlarını ifadə ediblər. Şəhidlərimizin və qazilərimizin Vətən naminə böyük fədakarlıq göstərdikləri, xalqımızın şanlı hərbi ənənələrinə sadiq qaldıqları, öz hünərləri ilə qalibiyyət tarixini yazdıqları vurğulanıb. Şəhid valideynləri onlara göstərilən diqqət və qayğıdan razılıqlarını bildirərək, hərbi qulluqçulara və polis əməkdaşlarına şərəfli xidmətlərində uğurlar arzulayıblar.

**kapitan Nigar Ağayeva**

*Şəhidlərimiz*

# OD-ALOVLU SƏNGƏRLƏRDƏ SON DAMLA QANINADƏK MƏTİNLİKLƏ DÖYÜŞDÜ...

Biz dövlət və xalq olaraq yenilməz mənəvi ruhumuzu dirçəltməklə, birlik, mübarizlik nümayiş etdirməklə, gücümüzü göstərməklə azğın, qanımıza susamış düşmənə qalib gəlmişik. Bu düşmən insanlıq üçün üzqarası sayılan ermənilərdir. Onların xislətində işğalçılıq, vəhşilik, riyakarlıq və saxtakarlıq tarixən özünü büruzə verib, zamanla dəyişməyiblər. Təcavüzkar Ermənistan vaxtilə xarici havadarlarına güvənərək və qurduğu istehkamlara arxayın olaraq torpaqlarımızın işğalını onillərlə davam etdirə biləcəyinə ümid bəsləyib. Ancaq qəhrəman Silahlı Qüvvələrimizin zəfər yürüşü qarşısında rəzil duruma düşüb, döyüş meydanında "dəmir yumruq"la erməni ordusunun başı əzilib.

44 günlük Vətən müharibəsi və Qarabağda keçirilən antiterror tədbirləri müasir tariximizin qalibiyyət səhifələridir. Qürur duyduğumuz möhtəşəm hərbi zəfər olmadan ərazisi bütövləşən və suverenliyini tam bərqərar edən ölkə ola bilməzdik. Qələbəmiz Müzəffər Ali Baş Komandanın sərkərdəlik qüdrəti ilə reallaşıb, çoxlu sayda şəhidin və qazinin canı, qanı bahasına qazanılıb.

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan hərbi qulluqçularımızdan biri də əsgər Seyfullayev Fərid Xeyrulla oğludur. Şəhid xüsusi təyinatlı fədakar ömür yaşayıb. Doğmalarının və silahdaşlarının onun haqqında bildirdikləri məlumatları qeydə aldım, həmçinin barəsində ayrı-ayrı rəsmi sənədlərin məzmunu ilə tanış oldum.

Fərid 1991-ci il avqustun 23-də Xaçmaz şəhərində doğulub. Xeyrulla Seyfullayev və Səidə Seyfullayevanın yeganə oğul övladı idi, Fəridə Seyfullayeva ondan bir yaş kiçik bacısıdır. Mehriban və zəhmətkeş ailədə böyüyərək boya-başa çatan Fərid xaraktercə təmkinli, dürüst, ailəcanlı, xeyirxah, sözü və əməli bütöv olub, böyüklərə hörmətlə yanaşıb, cəmiyyət içərisində etik davranışı ilə seçilib, ünsiyyətdə səmimiyyəti üstün tutub, kimisə acılamayıb. Valideyn nəsihətinə və xeyir-duasına dəyər verib.

Sağlam həyat tərzi və fiziki inkişafını xüsusi diqqətdə saxlayıb. Məktəbli olduğu vaxtdan idmana həvəsi vardı, 2-ci sinifdən etibarən güləş üzrə məşqlərə gedib. Müxtəlif yarışlara qatılıb. Yeniyetmə ikən rayonlararası çoxnövçülük yarışlarından birində qalib yerə sahiblənib.

O, Xaçmaz şəhərində yerləşən şəhid Çingiz Abdullayev adına 2 saylı tam orta məktəbdə təhsil alıb. Humanitar fənlərə daha çox maraq göstərib. Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq fənləri üzrə fərqlənib. Həm müəllimlərinə, həm də valideynlərinə hərbçi peşəsinə rəğbət bəslədiyini deyib.

2009-cu ilin oktyabr ayında Fərid müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin tabeliyindəki tədris-təlim mərkəzində xidmət keçib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirərək 2011-ci ilin aprel ayında ehtiyata buraxılıb.

2011-2012-ci illərdə o, Xaçmaz Peşə Liseyində elektrik, qaz qaynaqçısı ixtisasına yiyələnib. Bir müddət müxtəlif mülki sahələrdə, o cümlədən Qafqaz Konserv Zavodunda işləyib. Ailənin böyük övladı kimi valideynlərinə öz maddi dəstəyini əsirgəməyib.

Zəhmətkeşliyinə baxmayaraq, mülki iş-



lər onun ürəyincə olmayıb, hərbi xidmət barədə niyyətini valideynlərinə söyləyib. Həyatını hərbçi peşəsinə bağlamaq qərarı ilə atası öncə razılaşmayıb, tək oğul övladı olduğu üçün bu addımı atmağı məsləhət görməyib. Ancaq Fərid fikrindən dönməyib.

2016-cı ilin aprel ayının əvvəllərində düşmənlə təmas xəttində baş vermiş məlum döyüşlər Fəridi öz məramında daha da ruhlandırıb. Beləliklə, müəyyən vaxtdan sonra hərbi xidmətlə bağlı qərarına valideynlərinin xeyir-duasını alıb.

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının komandanlığı tərəfindən gəncin müraciəti müsbət cavablandırılıb. 2016-cı il avqustun 13-də Fərid Daxili Qoşunların sıralarına müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin snayper qrupunun, sonra isə atəş təminatı qrupunun heyət nəfəri vəzifələrinə təyin edilib. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldub. Komandirləri tərəfindən layiqli xidməti nəzərə alınaraq dəfələrlə mükafatlandırılıb. Müsbət şəxsi keyfiyyətlərinə görə silahdaşlarının hörmətini qazanıb. Xüsusi təyinatlı dəstədə xidmət etməsindən qürur duyub və öz üzərində əzmlə çalışıb. Təlimlərdə peşə məharətini təkmilləşdirib. Snayper və digər atıcı silahlardan sərrast atəş açıb. Fiziki hazırlığında hərbçi yoldaşlarından geri qalmayıb. Verilən tapşırıqların öhdəsindən bacarıqla gəlib.

2018-ci il fevralın 10-da xəstəlik nəticəsində atasının qəfil vəfatından Fərid çox sarsılıb, onun yoxluğu ilə barışmaq çətin olsa da, ruhdan düşməyib, hərbçi üçün vacib bilinən iradəsini toparlayaraq xidmətini davam edib.

25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin komandiri mayor Cavid Tağıyev Vətən müharibəsində iştirak etmiş zabitlərdən biridir. Komandir kimi xidmət və döyüş yoluna bələd olduğu şəhid xüsusi təyinatlılar haqqında onun öz xatirələri var. Bildirdi ki, Fərid tərbiyəli, intizamlı, vətənpərvər, yüksək hazırlıqlı hərbi qulluqçu kimi silahdaşlarının yaddaşında silinməz iz qoyub. Hərbçi şərəfini ləyaqətlə qoruyub. Döyüş hazırlığını artırmaq üçün səy göstərib, bu istiqamətdə göstəriciləri heç vaxt geriləməyib. Xüsusi təyinatlıların iştirak etdikləri yarışlara davamlı şəkildə qatılıb. Funksional vəzifələrinin icrasında məsuliyyətli idi.

Mayor C.Tağıyev məlumat verdi ki, Fərid koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması məqsədilə Lənkəran, Cəlilabad və Biləsuvar rayonlarının ərazilərində xidmətə çıxıb. Xidmət zamanı heç bir nöqsana yol verməyib, vətəndaşlarla nəzakətlə davranıb.

Dəstə komandirinin sözlərinə görə, Vətən müharibəsi zamanı tabeliyindəki şəxsi heyətlə öncə 16077 saylı hərbi hissəyə ezam olunub. 2020-ci ilin oktyabr ayının ortalarınadək hərbi hissədə ehtiyat qüvvə qismində qalaraq döyüş əməliyyatlarında iştirak etməyə hazırlaşıblar. Həmçinin müharibə vəziyyəti ilə əlaqədar həmin bölgədə ictimai təhlükəsizliyin qorunması tədbirlərində iştirak ediblər.

Sonra ön cəbhəyə göndəriliblər. Füzuli rayonunun ərazisində dəstənin xüsusi təyinatlılarının döyüş yolu başlayıb. Həmin vaxt müxtəlif istiqamətlərdə erməni işğalçılarına qarşı ordumuzun uğurlu hücumları səngiməyib. Ayrı-ayrı qoşun növlərinə aid xüsusi təyinatlı bölmələr savaş meydanında şücaət nümunələri göstərərək yağıya divan tutublar.

Zabit diqqətə çatdırdı kı, Fərid və dəstənin digər hərbi qulluqçuları Füzuli rayonunun bəzi yaşayış məntəqələrinin azad olunması və müdafiəsi, nəzarətimizə keçən ərazilərdə axtarış aparılması, hərbi obyektlərin, qənimət götürülən silah-sursatın, texnikanın mühafizəsi, habelə digər döyüş tapşırıqlarını peşəkarlıqla yerinə yetiriblər.

Oktyabr ayının sonundan etibarən Şuşa uğrunda hücum əməliyyatına qatılıblar. Xocavənd və Xocalı rayonlarının ərazilərində sızma, kəşfiyyat, pusqu fəaliyyətlərini icra edərək düşmənin atəş nöqtələrini susdurublar. Bu zaman döyüşçü qətiyyət, dözüm və sayıqlıq nümayiş etdirib. Bir neçə gün ərzində çətin dağlıq relyefdə hərəkət zamanı düşmən artilleriyasının atəşinə məruz qalıblar. Şuşaya yaxınlaşdıqdan sonra şəhər ətrafında şiddətli döyüşlər gedib. Mətinliklə vuruşan Fərid noyabrın 6-da Şuşa yaxınlığında ağır yaralanaraq şəhadətə yüksəlib. Qələbə sevincini yaşamaq ona qismət olmayıb. Fəridin qrup komandiri olmuş kapitan Şamil Babayev də Şuşa uğrunda döyüşdə şəhidlik zirvəsinə ucalıb.

Vətən müharibəsi iştirakçıları: 25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin atəş təminatı qrupunun dəzgahlı qumbaraatan yarımqrupunun komandiri baş çavuş Əkbər Cəfərov, xüsusi həmlə qrupunun yarımqrup komandiri baş çavuş Zamiq Ağayev, istehkamçı yarımqrupunun komandiri-baş istehkamçısı baş çavuş Kənan Kərimov, qazi, ehtiyatda olan çavuş Zeynal Məmmədov odlu səngərlərdən keçiblər, qələbəmizə öz töhfələrini veriblər. Onlar Fəridlə birlikdə həm xidmət ediblər, həm də vuruşublar. Əkbər onun yarımqrup komandiri olub. Hərbi qulluqçular Fəridin cəsur xüsusi təyinatlı, güvənilən silahdaş olduğunu, xidmətdə nailiyyətlər qazandığını, peşəsinin xüsusiyyətlərinə həvəslə yiyələndiyini, hərbi kollektivin mənafeyinə heç vaxt xələl gətirmədiyini, çevikliyi, səliqəsi, dəqiqliyi ilə fərqləndiyini söylədilər.

Silahdaşlarının dediklərinə görə, o, müharibənin hər üzünü görüb, döyüşə ön sırada atılıb, avtomat silahı ilə atəş zərbəsi endirərək neçə-neçə işğalçıya qan uddurub, ələ keçirdiyi silah-sursatı düşmənə qarşı istifadə etmək fürsətini də qaçırma-



yıb, erməni hərbçilərinin pusquya salınması üçün əlverişli atəş mövqeyi tutmağı bacarıb. Bununla yanaşı, atəş altında olsa da, yaralı döyüşçü yoldaşlarına özünü köməyə yetirib.

Füzuli rayonunda "Beton post" deyilən möhkəmləndirilmiş mövqe və Şuşa uğrunda döyüşlərdə göstərdiyi igidlik unudulmazdır.

Qazi Z.Məmmədov danışdı ki, noyabrın 6-da Xankəndi-Şuşa yolunun üzərində, Şuşanın qala divarlarına yaxın məsafədə yerləşdikləri mövqe düşmən tankından atəşə tutulub, mərmi böyük qaya daşına dəyib. Həm mərmi qəlpələri, həm də daş qırıntıları onu və Fəridi ağır yaralayıb. Fərid həmin yerdə şəhidlik məqamına qovuşub.

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən 14 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə Fəridin Şuşada hərbi əməliyyat nəticəsində qəlpələrlə zədələnmələr səbəbindən şəhid olması faktı öz əksini tapıb. Ancaq sənəddə onun ölüm tarixi 10 noyabr 2020-ci il yazılıb.

2020-ci il noyabrın 14-də hərbi qulluqçumuzun nəşi ailəsinin yaşadığı Xaçmaz rayonunun Hacıqurbanoba kəndinə gətirilib, həmin gün Köhnə Xaçmaz kəndinin qəbiristanlığında, atasının məzarının yanında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 25, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə əsgər F.Seyfullayev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Xaçmaz rayonu üzrə şəhidlərin siyahısında 301 nəfərin adı qeydə alınıb.

S.Seyfullayevanın babası Mustafa Dadaşov 1941-1945-ci illərdə alman faşistlərinə qarşı döyüşüb, 1984-cü ildə dünyasını dəyişib. Fəridin dayısı Daşdəmir Abdullayev 1994-cü ildə Tərtər rayonunda şəhid olub.

Məzunu olduğu orta məktəbin yerləşdiyi küçəyə, həmin məktəbin 8a, eləcə də Köhnə Xaçmaz kəndindəki şəhid Əzizəddin Tahirov adına tam orta məktəbin 4ç siniflərinə şəhidin adı verilib. Hacıqurbanoba kəndində Seyfullayevlər ailəsinin yaşadığı evin önündə xüsusi təyinatlının abidəsi yaradılıb. Evdə xatirə guşəsi düzəldilib. Kənddə şəkli əks olunan plakat quraşdırılıb.

Müəlliflər Rövşən Ağamalıyevin "Əsrimizin qəhrəmanları", "Beynəlxalq Əlillər Cəmiyyəti" İctimai Birliyinin tərtibçiliyi ilə hazırlanan "And yerimiz şəhidlər", Məmməd Qədirin "Haqqınızı halal edin" kitablarında, habelə "Xaçmaz" qəzetində şəhidə həsr



edilən məqalələr və şeirlər dərc olunub. Müxtəlif televiziya kanallarında və sosial şəbəkələrdə döyüşçünün ömür yolu işıqlandırılıb.

Qeyd edim ki, Fəridin anası S.Seyfullayeva evdar qadındır, bacısı F.Seyfullayeva isə müəllimdir, öz peşəsi üzrə işləyir.

2019-cu ilin mart ayında Fərid Ağabacı xanımla ailə qurub. Qızları Ayla və Səma onun yadigarlarıdır. Fərid ön cəbhədə Ayla üçün çox darıxıb. İkinci övladının olacağını müharibədə bilib. Səma atası şəhid olandan 6 ay sonra dünyaya gəlib. Səma onun bəyəndiyi adlardan biri olduğu üçün qızına bu adı qoyublar. A.Seyfullayeva və qızları hazırda Şabran rayonunun Pirəmsən kəndində yaşayırlar.

Son nəfəsinədək ürəyi Vətən eşqi ilə döyünən şəhidə həsr olunan şeirdə belə misralar var:

**Tanrının hüzurunda şəhadəti qazandı,**
**Ölməzlərə qoşuldu, Seyfi ləqəbli igid.**

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

4_Layout 1 15.01.2024 9:58 Page 1



# TƏHLÜKƏSİZLİYİN KEŞİYİNDƏ AYIQ-SAYIQ XİDMƏT

Bu gün 67987 saylı hərbi hissənin şəxsi heyəti ictimai qaydanın və təhlükəsizliyin keşiyində mətinliklə dayanır. Əminliklə qeyd etmək olar ki, ciddi nizam-intizamın hökm sürdüyü hərbi hissə qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməyə qadirdir.



Məlum olduğu kimi, 2015-ci il noyabrın 26-da Azərbaycan Respublikasında ictimai-siyasi sabitliyi pozmağı, təxribatlar, kütləvi iğtişaşlar, terror aktları törətməyi, bütövlükdə konstitusiya quruluşunu dəyişdirməklə, şəriət qanunları ilə idarə olunan dini dövlətin yaradılmasını planlaşdıran silahlı cinayətkar dəstənin zərərsizləşdirilməsi üzrə Daxili İşlər Nazirliyi tərəfindən Bakı şəhərinin Nardaran qəsəbəsində xüsusi əməliyyat keçirilib. Vətəndaşlarımızın hüquq və azadlıqlarının, qanuni mənafelərinin müdafiəsi, qanunsuz saxlanılan odlu silahların, partlayıcı maddə və qurğuların yığılması məqsədilə 2015-ci ilin dekabr ayının 1-də qəsəbədə Daxili Qoşunların şəxsi heyətinin də cəlb olunduğu xüsusi əməliyyatın keçirilməsinə başlanılıb. Həyata keçirilən tədbirlər nəticəsində qanunazidd hərəkətlərin qarşısı alınıb. Nardaran qəsəbəsində baş vermiş hadisələrlə əlaqədar 67987 saylı hərbi hissə tərəfindən polis orqanları ilə birgə burada əmin-amanlıq təmin edilib və hazırda xidmət davam etdirilməkdədir.



Hərbi hissənin fəaliyyəti ilə tanışlıq zamanı Nardaran qəsəbəsində xidmətin təşkili haqqında məlumat toplamaq və fotoçəkiliş aparmaq üçün orada oldum. Qoşun naryadının rəisi, hərbi hissənin xüsusi vasitələrin tətbiqi bölməsinin komandiri baş leytenant Seymur Mustafayev məlumat verdi ki, polislə birgə hərbi hissənin qoşun naryadının istifadəsinə verilən yeni binada mövcud müasir şərait hərbi qulluqçuların yüksək səviyyədə xidmət aparması üçün zəmin yaradır.

O, tabeliyindəki hərbi qulluqçularla qəsəbədə ictimai qaydanın qorunması, ictimai təhlükəsizliyin təmin olunması üzrə cədvələ əsasən növbəli şəkildə xidmətə çıxdıqlarını bildirdi. Onunla xidmətin necə təşkil edildiyi barədə söhbətləşdik, yaradılan postlarda olduq. Baş leytenant S.Mustafayev məlumat verdi ki, qəsəbə daxilində xidmət həm piyada marşrut üzrə, həm də stasionar postlarda təşkil olunur. Hər bir stasionar postda 2 nəfər hərbi qulluqçu ilə birlikdə 1 nəfər də polis nəfəri xidmət aparır. Hər gün xidmətə cəlb edilən şəxsi heyətin tam tərkibdə olması, ekipirovkası və silahlanması həm postlara çıxarkən, həm də qayıdarkən yoxlanılır.

Baş leytenant S.Mustafayev xidmətin idarə olunması və nəzarətdə saxlanılmasında qoşun naryadı rəisinin köməkçisi baş leytenant Elvin Fərhadlının fəaliyyətini də qeyd etdi. Baş leytenant E.Fərhadlı diqqətə çatdırdı ki, qəsəbədə yaşayan sakinlərin təhlükəsizliyinin təmin olunması üçün xidmət ayıq-sayıq aparılır. Qəsəbəyə giriş-çıxış zamanı vətəndaşların sənədləri yoxlanılır, nəqliyyat vasitələrinə baxış keçirilir, hər hansı bir şübhəli şəxs və əmlak aşkar olunduqda dərhal saxlanılır və aidiyyəti üzrə təhvil verilir.

Qeyd edim ki, Nardaran qəsəbəsində xidmətin təşkili həm hərbi hissə, həm də Daxili Qoşunların Baş İdarəsinin əməliyyat qrupları tərəfindən yoxlanılır.

Xüsusi vasitələrin tətbiqi dəstəsinin komandiri polkovnik-leytenant Rüfət Muradov Nardaran qəsəbəsində xidmətə cəlb olunan hərbi qulluqçuların qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirmələri üçün əllərindən gələni əsirgəmədiklərini bildirdi. Əlavə olaraq, xidmətin düzgün təşkilinin kompleks iş olduğunu söylədi.

Ümumilikdə xidmətin peşəkarcasına təşkili komandir heyətinin bacarıqlı və səriştəli olmasının təsdiqidir.

**kapitan Xədicə Hacızadə**

# PEŞƏKAR VƏ MƏSULİYYƏTLİ İSTEHKAMÇILAR

12318 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində peşəkarlıq nümayiş etdirirlər. Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında vacib rolu olan bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur.

Xidmət müddətində bir çox tapşırığı uğurla yerinə yetirən dəstənin istehkamçı yarımqrupunun komandiri-baş istehkamçısı baş çavuş İlkin Rəhmanlı söylədi ki, yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların, minaların tapılaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.



Məlumat üçün bildirək ki, hərbi hissə komandanlığı və dəstənin komandir heyəti tərəfindən müsbət xarakterizə olunan baş çavuş İ.Rəhmanlı ötən müddət ərzində özünü nümunəvi hərbi qulluqçu, peşəkar istehkamçı kimi nümayiş etdirməyi bacarıb.

Baş çavuş İ.Rəhmanlı yarımqrupun nümunəvi hərbi qulluqçularından baş çavuş Vüsal İbadlının və çavuş Pərvin Qasımlının adlarını qeyd edərək, onların verilən tapşırıqların icrasına hər zaman məsuliyyətlə yanaşdıqlarını vurğuladı.

Hərbi hissənin mühəndis və kimya xidmətinin rəisi mayor Emin Tağıyev istehkamçı yarımqrupunun fəaliyyətini müsbət qiymətləndirərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan şəxsi heyətin bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazır olduğunu bildirdi.

**kapitan Şahin Cəfərzadə**

*Həkim məsləhəti*

# KƏSKİN RESPİRATOR XƏSTƏLİKLƏR

Kəskin respirator xəstəliklər qrupuna qrip, paraqrip, adenovirus, rinovirus və digər infeksiyalar aiddir. Bu xəstəliklər insan patologiyasında mühüm yer tutur.

Statistik məlumatlara görə, hər il qrip və digər kəskin respirator xəstəliklərə milyonlarla insan yoluxur. Antroponoz xəstəlikdir, xəstələnmə halı yalnız insanlarda təsadüf olunur.

Qrip intoksikasiya və yuxarı tənəffüs yollarının selikli qişalarının zədələnməsi ilə xarakterizə olunan kəskin virus mənşəli infeksion xəstəlikdir. Qrip epidemiyaları haqqında məlumat uzaq keçmişə aiddir. 19-cu əsrin axırlarından başlayaraq bəşəriyyət qripin 4 ağır pandemiyasını keçib və xəstəlik milyonlarla insanın ölümünə səbəb olub. Alimlər tərəfindən qripin virus mənşəli olması 1933-cü ildə müəyyənləşdirilib.



İnfeksiya mənbəyi xəstə insandır. Maksimal yoluxuculuq xəstəliyin ilk günləri müşahidə olunur. İnfeksiya hava-damcı yolu ilə yayılır. Öskürmə və asqırma zamanı viruslar selik damcıları ilə xarici mühitə ifraz olunur. Bütün yaş qrupları bu xəstəliyə həssasdır. Kəskin respirator xəstəliklərdə inkubasiya dövrü 1-3 gündür. Kliniki simptomlar: zökəm, başağrısı, üşütmə, hərarətin 38,5 - 40 dərəcəyə qədər yüksəlməsi, zəiflik, əzginlik, əzələlərdə və oynaqlarda ağrılar.

Xəstəliyin gedişi zamanı bəzən quru öskürək yaş öskürəklə əvəz olunur. Qrip xəstəliyi zamanı ikincili bakterial floranın qoşulması bir çox halda pnevmoniya, həmçinin sinir sisteminin zədələnməsi (meninqoensefalit) və polinevrit kimi ağırlaşmalara gətirib çıxarır.

Şəxsi heyət arasında qrip və digər kəskin respirator xəstəliklərin qarşısının alınması məqsədilə aparılan əsas profilaktik və əks-epidemik tədbirlər aşağıdakılardır:

1. Qrip və kəskin respirator xəstəliklərə yoluxmuş şəxsləri vaxtında aşkarlamaq, təcrid etmək və onlar üzərində tibb nəzarəti gücləndirmək.

2. Səhər və axşam şəxsi heyət arasında termometriya işini həyata keçirmək.

3. Şəxsi heyətin məskunlaşma yerlərində, kazarmalarda, iş otaqlarında normal şəraitin yaradılması:

- otaqların havasının mütəmadi qaydada dəyişdirilməsi və döşəmənin nəm üsulla silinməsi;
- otaqlarda temperatur rejiminin normada saxlanılması;
- profilaktik dezinfeksiya tədbirlərinin aparılması.

4. Məzuniyyətdən, ezamiyyətdən qayıdan hərbi qulluqçular üzərində profilaktik tibbi müayinələrin gücləndirilməsi.

5. Şəxsi heyət arasında sanitar-maarifləndirmə işinin gücləndirilməsi.

6. Şəxsi heyətlə keçirilən kütləvi tədbirlərin mümkün qədər məhdudlaşdırılması.

7. Şəxsi heyətin qidalanmasına və isti mayelərlə (çay, kompot və s.) təmin olunmasına nəzarəti gücləndirmək.

Qeyd etmək lazımdır ki, şəxsi heyətin peşə fəaliyyətinin və döyüş hazırlığının yüksək səviyyədə qorunub saxlanılması üçün profilaktik və əks-epidemik tədbirlərin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

**tibb xidməti mayoru**
**Jalə Məhərrəmova**

*NÜMUNƏVİ XİDMƏT*

# VƏTƏNPƏRVƏR VƏ BACARIQLI TAQIM KOMANDİRİNİN MÜAVİNİ

99713 saylı hərbi hissənin intizamı, nümunəvi xidmətilə seçilən hərbi qulluqçularından olan çavuş Cabir Əkbərov müddətli həqiqi hərbi xidmətdədir. Hərbi hissənin komandanlığı tərəfindən müsbət xarakterizə olunan Cabir qısa zamanda digər hərbi qulluqçulara nümunə olmağı bacarıb.

O, 2004-cü il iyulun 7-də Xaçmaz rayonunun Müşfiq kəndində doğulub. Orta təhsilini öz doğma kəndindəki şəhid Tanrıverdi Bayramov adına tam orta məktəbdə alıb. Uşaqlıq illərində həvəskar səviyyədə idmanın cüdo növü ilə məşğul olub. 2020-ci ildə Bakı Biznes və Kooperasiya Kollecinə qəbul olunub. Bir il oxuduqdan sonra hərbi xidmətə göndərilməsi ilə əlaqədar təhsilini yarımçıq qoyub. 25031 saylı hərbi hissəyə müddətli həqiqi hərbi xidmətə qəbul olunub. Qeyd edək ki, Cabir 25032 saylı hərbi hissədə kiçik komandirlərin hazırlanması kursunu keçib. Hazırda 99713 saylı hərbi hissənin patrul bölüyünün patrul taqımının komandir müavini vəzifəsindədir.



Üzərinə düşən vəzifələrin məsuliyyətini dərk edən çavuş C.Əkbərov xidmətə ciddi münasibətilə seçilir. Komandirləri tərəfindən verilən əmrlərin düzgün yerinə yetirilməsi üçün bilik və bacarığını əsirgəmir.

Vətənə olan borcunu ləyaqətlə yerinə yetirmək onun üçün ən ümdə vəzifədir. Çünki Vətənə olan bağlılıq ona ailəsindən gəlir. Belə ki, hərbi qulluqçumuzun qardaşı əsgər Əkbərov Cabar Əşrəf oğlu 44 günlük Vətən müharibəsində Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsindən döyüş əməliyyatlarına cəlb olunaraq 2020-ci il oktyabrın 1-də Ağdərə rayonu istiqamətində gedən qızğın döyüşlər zamanı şəhadətə yüksəlib. Ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Vətənpərvər ailədə böyüyüb boya-başa çatan və hərbi xidmət borcunu vicdanla yerinə yetirən çavuş C.Əkbərova xidmətdən sonrakı həyatında yalnız uğurlar və cansağlığı arzulayırıq.

**kapitan Nigar Ağayeva**

# KOMANDİRLƏRİN ETİMADINI DOĞRULDAN BAŞ ƏSGƏR

Baş əsgər Elşən Abdullayev 25032 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən, intizamlı və bacarıqlı hərbi qulluqçularındandır. Öz vətənpərvərliyi ilə seçilən Elşən qısa müddətdə kollektivin hörmətini qazanıb. O, 2004-cü il iyulun 27-də Gəncə şəhərində anadan olub. 2010-2021-ci illərdə Samux rayonundakı 1 saylı tam orta məktəbdə təhsil alıb. 2021-ci ildə Şamaxı Dövlət Regional Kollecinə qəbul olunub. 2022-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb və hazırda hərbi hissənin komendant bölüyündə xidmət edir.



Hələ uşaq yaşlarından hərbçi olmaq istədiyini bildirən Elşən Daxili Qoşunların sıralarında Vətənə xidmət etməyi özü üçün fəxarət hesab edir. Baş əsgər E.Abdullayev hər zaman Vətəni müdafiə etmək, onun nüfuzunun və qüdrətinin möhkəmləndirilməsi üçün çalışmaq və bu yolda hətta canını belə qurban vermək ruhunda böyüyüb. Hərbi biliklərə xüsusilə maraq göstərir. Daim öz üzərində çalışır, çünki yaxşı başa düşür ki, hərbçi öz əzmkarlığı ilə qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını yerinə yetirə, qəflətən yarana biləcək çətinlikləri dözümlülüklə aradan qaldıra bilər. Bu zəhmətin nəticəsidir ki, o, döyüş hazırlığını gündən-günə artırır.

Hərbi qulluqçu xidmətinin məsuliyyətini dərindən dərk edərək üzərinə düşən vəzifələrin icrasına vicdanla yanaşır. O, hərbi xidmətdən sonra kollecdə təhsilini başa vurmağı, öz ixtisası üzrə bacarıqlı mütəxəssis olmağı düşünür.

**kapitan Xədicə Hacızadə**

## HƏRBİ XƏBƏRLƏR -YENİLİKLƏR-

### "Spyder" ZRK-nın yeni konfiqurasiyası sınaqdan keçirilib

İsrail Müdafiə Nazirliyinin Müdafiə Araşdırmaları və İnkişafı Müdirliyi (DDR&D) ilə "Rafael" şirkəti "Spyder" zenit-raket kompleksinin (ZRK) yeni "hamısı birində" (AIO - All in One) konfiqurasiyasını sınaqdan keçirib. "Poliqon" "Rafael"ə istinadən xəbər verir ki, sınaq zamanı "Spyder" ZRK hədəf kimi təyin olunmuş pilotsuz uçuş aparatını (PUA) aşkarlayaraq uğurla məhv edib.



Hər cür hava şəraitində fəaliyyət göstərən qısamənzilli mobil zenit-raket kompleksi olan "Spyder" döyüş təyyarələrini, qanadlı raketləri, PUA-ları və yüksək dəqiqlikli aviasiya silahlarını aşkarlamaq və məhv etmək üçün təyin olunub. Kompleks "Rafael" istehsalı olan "Python" və "Derby" raketlərindən istifadə edərək hava təhdidlərinin qarşısını alır.

## Allah rəhmət eləsin

99713 saylı hərbi hissənin komandanlığı MAXE əsgər Laçın Məcidova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000